**UOT**
https://doi.org/10.59849/2218-4783.2026.2.92

# MÜASİR AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ ZƏFƏRDƏN SUVERENLİYƏ: İLHAM ƏLİYEVİN SƏRHƏD STRATEGİYASI

# MODERN AZERBAIJAN STATESMANSHIP FROM VICTORY TO SOVEREIGNTY: ILHAM ALIYEV'S BORDER STRATEGY

**Qərib ƏSGƏROV***

**XÜLASƏ**

Məqalədə Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı prezident İlham Əliyevin rəhbərliyi və mükəmməl sərkərdəlik bacarığı sayəsində 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərin Azərbaycanın dövlət sərhəd bütövlüyünün təmin olunmasında rolu, eləcə də 2023-cü il 23 aprel tarixində Azərbaycan-Ermənistan sərhədində Laçın rayonu ərazisində Həkəri çayı üzərində "Laçın" sərhəd-buraxılış məntəqəsi qurulmasının tarixi və siyasi əhəmiyyəti araşdırılmışdır. Əldə olunmuş bu tarixi nailiyyət, qazanılmış böyük uğur ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin mərhələli şəkildə planlaşdırdığı və həyata keçirdiyi hərbi-siyasi xarakterli müdrik strateji gedişlərin əməli nəticəsi kimi araşdırılmışdır.

**Açar sözlər:** *dövlət sərhədi, sərhəd buraxılış məntəqəsi, axtarış tədbirləri, sərhəd bütövlüyü, milli maraq.*

**ABSTRACT**

The article examines the role of the historic Victory achieved in the 44-day Patriotic War under the leadership of the President of Azerbaijan and Supreme Commander-in-Chief of the Armed Forces, Ilham Aliyev, in restoring Azerbaijan's control over its state borders, as well as the historical and political significance of the establishment of the "Lachin" border checkpoint on the Hakari River in the Lachin district on the Azerbaijan-Armenia border on April 23, 2023. This historic achievement was the practical outcome of the consistent military and political strategy planned and implemented under the leadership of President Ilham Aliyev.

**Keywords:** *state border, border checkpoint, search measures, border integrity, national interest.*

## GİRİŞ

1991-ci ildə özünün dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın həyata keçirdiyi aqressiya və aqressiv separatçılıq siyasəti nəticəsində ərazilərinin təqribən 13210 km$^2$ hissəsini itirdi. Ərazi bütövlüyü və suverenliyi pozulan Azərbaycan Respublikasının Ermənistanla dövlət sərhədlərinin 558 kilometr, İranla isə 132 kilometr hissəsi nəzarətdən kənarda qaldı. Dövlət sərhədlərinin işğal nəticəsində nəzarətdən kənarda qalması və həmin ərazilərdə qeyri-leqal fəaliyyətin təşkili Azərbaycanın milli təhlükəsizliyi ilə yanaşı, otuz ilə yaxın bir müddət ərzində regional təhlükəsizliyə də əsas təhdidlərdən hesab olunurdu.

2020-ci il 27 sentyabr tarixində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, prezident İlham Əliyevin rəhbərliyi altında işğalçı Ermənistana qarşı uğurla həyata keçirilən "Dəmir yumruq" adlı əks-hücum əməliyyatları nəticəsində ölkənin ərazi bütövlüyü təmin olundu və dövlət sərhədlərinin böyük bir hissəsi işğaldan azad olundu. Qazanılmış tarixi Zəfər regionda yeni geosiyasi reallıqlar yaratdı. Yaranmış yeni reallıqlarla barışmaqdan başqa yolu olmayan Ermənistan

*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, Dövlət Sərhəd Xidməti Akademiyası, e-mail: qerib.azadoglu@mail.ru
ORCID:

müxtəlif vasitəçilərin köməkliyi ilə Azərbaycan tərəfi ilə masa arxasında əyləşməyə və danışıqlar aparmağa məcbur oldu.

Şübhəsiz ki, 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərdən sonra Azərbaycanın qarşısında dayanan əsas məsələlərdən biri Ermənistanla yekun sülh müqaviləsinin imzalanması, ərazi bütövlüyünün və dövlət sərhədlərinin qarşılıqlı tanınmasına nail olmaq idi. Təsadüfi deyildir ki, 2022-ci ilin fevralında Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılmasına dair irəli sürdüyü beş prinsipdə ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı, eləcə də dövlətlərin bir-birilərinə qarşı ərazi iddialarının olmamasını və dövlət sərhədinin delimitasiyası və demarkasiyası ilə bağlı məsələlər öz əksini tapmışdır [Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, 2022].

Vətən müharibəsinin yaratdığı yeni reallıqlar Ermənistanı bu prinsiplər ətafında ciddi düşünməyə və daha doğrusu bu prinsiplərlə razılaşmağa bir növ məcbur etdi. Məhz bunun nəticəsidir ki, 2022-ci il 23 may tarixində Brüsseldə Avropa İttifaqı Şurasının vasitəçiliyi baş tutmuş görüşdən bir gün sonra Azərbaycan və Ermənistanda sərhədlərin delimitasiyası üzrə komissiyanın yaradılması barəsində müvafiq qərarlar imzalandı.

2022-ci il 24 may tarixində Sərhəd komissiyalarının ilk görüşündə Ermənistan tərəfi Rusiya Federasiyası vasitəsilə Azərbaycana dövlət sərhədinin delimitasiya və demarkasiyası ilə bağlı hər iki tərəfin silahlı birləşmələrinin güzgü prinsipi ilə sərhəddən geri çəkilməsini təklif etdi. Lakin bu təklif Azərbaycan tərəfinin milli maraqları ilə ziddiyyət təşkil etdiyi üçün qəbul edilmədi. Rəsmi Bakı qəti şəkildə bəyan etdi ki, delimitasiya və demarkasiya prosesinin başlanması üçün hər hansı bir şərt qəbuledilməzdir.

44 günlük Vətən müharibəsində qazanılmış hərbi-siyasi qələbə nəticəsində regionda yaranmış yeni reallıqlarla barışmayan Ermənistan və onu himayə edən dövlətlər aparılan bu danışıqlara etinasız yanaşaraq Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədi, əksinə yeni revanşist iddialarla çıxış etməyə başladılar. Bununla yanaşı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata laqeyd yanaşan Ermənistan tərəfi icrası zəruri müddəaları kobud şəkildə pozmaqda davam edirdi.

**“LAÇIN” DÖVLƏT SƏRHƏDİNDƏN BURAXILIŞ MƏNTƏQƏSİNİN QURULMASI**

2020-ci il 10 noyabr bəyanatı ilə razılaşdırılmış və qəbul edilmiş öhdəliklərdən sui-istifadə edərək ermənilərin humanitar məqsədli “Laçın” dəhlizindən öz çirkin hərbi-siyasi məqsədləri naminə istifadə etməsi mövcud vəziyyəti gərginləşdirirdi. “Laçın” dəhlizi vasitəsi ilə təbii sərvətlərimizin talan edilərək Ermənistana daşınması, eləcə də bu yol vasitəsilə separatçıların silah-sursatla təmin olunmasının həyata keçirilməsi və ərazilərin minalanması prosesi davam etdirilirdi. Azərbaycanın Qarabağ iqtisadi rayonundan Ermənistan silahlı qüvvələrinin qalıqlarının və qanunsuz silahlı birləşmələrin çıxarılması istiqamətində hər hansı bir irəliləyişin olmaması isə sülh danışıqları prosesinin başlanmasına ciddi əngəl yaradırdı.

Ermənilərin Laçın dəhlizi vasitəsilə davam etdirdikləri qanunsuzluqlara və haqsızlıqlara etiraz əlaməti olaraq Azərbaycan ekofəalları, ictimai və qeyri-hökumət təşkilatlarının nümayəndələri Laçın-Xankəndi yolu üzərində dinc etiraz aksiyalarına başladılar. Onların 138 gün fasiləsiz şəkildə nümayiş etdirdikləri haqlı mübarizə vətən, xalq naminə edilən əsl cəsarətlilik, fədakarlıq nümunəsi idi. Lakin təəssüflər olsun ki, uzun müddət davam edən haqlı, sivil etirazlara, verilən bəyanatlara baxmayaraq, qarşı tərəf rus sülhməramlı kontingentinin də himayədarlığından yararlanaraq, alternativ yollardan istifadə etməklə, öz çirkin əməllərini davam etdirdilər [Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, 2021: 205].

Ermənistan tərəfindən aprelin 22-də birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın-Xankəndi yolunun girişində nəzarət buraxılış məntəqəsinin qurulması isə ən son addımlardan biri oldu. Bu addıma adekvat olaraq aprelin 23-ü saat 12:00-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti-

nin bölmələri tərəfindən Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd buraxılış məntəqəsi quruldu.

Beləliklə, 2023-cü il 23 aprel tarixində Azərbaycan-Ermənistan sərhədində Laçın rayonu ərazisində Həkəri çayı üzərində ‘‘Laçın” dövlət sərhədindən buraxılış məntəqəsi quruldu və üçrəngli bayrağımız orada dalğalandırıldı. Bununla da Azərbaycan sərhədlərinin bütövlüyü tam təmin olundu. Azərbaycanın dövlət müstəqilliyi tarixində ilk dəfə idi ki, dövlət sərhədlərimiz tam nəzarətə götürülürdü. Bu hadisə böyük Şuşa Zəfərindən sonra əldə edilmiş ən böyük hərbi siyasi qələbə kimi tarixə həkk olundu.

Məntəqənin yaradılması ilə Ermənistan tərəfi beynəlxalq aləmdə Qarabağda yaşayan ermənilərin blokadada qalması, ərzağa, dərmana və digər tələbat mallarına ehtiyacları olması ilə bağlı kompaniyalara başladı, Azərbaycanı Ermənistanla sərhəddə vəziyyəti gərginləşdirməkdə, Qarabağ bölgəsində humanitar böhran yaratmaqda təqsirləndirirlər. Əsas məqsəd isə təbii ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bildirdiyi kimi hərəkətin məhdudlaşdırılması deyil, əksinə gediş-gəlişə nəzarətin təmin edilməsi, orada yaşayan erməni əhalisinin hüquqlarının Azərbaycanın Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunması idi.

Laçın” dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılması Azərbaycanın suveren hüquqları çərçivəsində atılmış legitim bir addım idi. Laçın ölkəmizin ərazisində olduğundan burada həyata keçiriləcək tədbirlər, o cümlədən sərhəd-buraxılış məntəqəsinin yaradılması da müstəsna olaraq ölkəmizin daxili işidir. Bu amili xüsusi vurğulayan Beynəlxalq Ədalət Məhkəməsi 2023-cü il 6 iyul tarixli yekdil qərarı ilə Ermənistanın “Laçın” keçid məntəqəsinin qanunsuz olması ilə bağlı iddialarını qəti şəkildə təkzib etdi.

Dövlət sərhədlərinin toxunulmazlığının təmin olunması məsələsi ölkəmizin milli təhlükəsizliyi ilə yanaşı, qanunun aliliyinin də tələbidir. Dövlət təhlükəsizliyinin pozulmasına yönəlik təhdidlərə qarşı suveren ərazimizdə sərhəd-buraxılış məntəqəsinin yaradılması beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq tam qanuni addımdır [Azərbaycan Respublikası Müdafiə Nazirliyi, 2022: 322].

Bütün çirkin iftiralara baxmayaraq Azərbaycan öz suveren ərazisində sərhəd-buraxılış məntəqəsini qurduğu elə ilk gündən Qarabağ bölgəsində yaşayan etnik azlıq olan erməni sakinlərinin hər iki istiqamətə gediş-gəlişini şəffaf şəkildə təmin etməyi bacardı.

“Laçın” dövlət sərhədindən buraxılış məntəqəsində yüklərin təmas olmadan, dəqiq və sürətli şəkildə yoxlama-baxış prosedurası ABŞ istehsalı olan müasir mobil rentgen aparatı vasitəsi ilə təmin olunur. Sərhəd-buraxılış məntəqəsindən insanlar heç bir maneə olmadan sənədlərini təqdim etməklə rahat şəkildə gediş-gəliş edə bilirlər.

Ermənistan Respublikası ilə dövlət sərhədində “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsi fəaliyyətə başladığı tarixdən Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus nəqliyyat vasitələrinin dövlət sərhədindən hərəkətinə lazımi şərait yaradılmış, müvafiq qaydada sərhəd və gömrük nəzarətindən keçməklə dövlət sərhədindən buraxılmışlar.

Lakin ötən müddət ərzində Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən BQXK-ya aid nəqliyyat vasitələrində dəfələrlə qanunsuz yolla müxtəlif növ qaçaqmalın keçirilməsi cəhdləri aşkarlanmışdır. Bu barədə BQXK-ya rəsmi kanallar vasitəsilə xəbərdarlıq edilməsinə baxmayaraq qanunazidd əməllər təkrar olunmuş və onların aradan qaldırılması üçün zəruri addımlar atılmamışdır [Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti, 2023].

BQXK-ya məxsus olan və tibbi təxliyə həyata keçirən nəqliyyat vasitələrindən qaçaqmalçılıq üçün istifadə edilməsi Azərbaycan Respublikasının qanunlarının kobud şəkildə pozulması faktları olmaqla yanaşı, həm də ölkəmizin humanitar təşkilat olan BQXK-ya olan etimadından sui-istifadə olunmasıdır.

Sərhəd-buraxılış məntəqəsinin qurulması Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasını maksimum şəkildə məhdudlaşdırdı. Bu isə Rusiya sülhməramlı kontingentinin müvəq-

qəti nəzarətində olan ərazidə hələ də qalmaqda olan 10 minə yaxın erməni silahlısının Azərbaycana qarşı müqavimət potensialını zəiflədirdi.

Məntəqənin açılmasının mühüm əhəmiyyətlərindən biri də vaxtilə azərbaycanlılara qarşı qanlı faciələrin törədilməsində iştirak edən cinayətkarların saxlanılaraq ədalət məhkəməsinə təhvil verilməsi oldu. Belə ki, keçirilmiş axtarış tədbirləri nəticəsində 2023-cü il iyulun 29-da Xocalı rayonunun Meşəli kəndində onlarla azərbaycanlının öldürülməsində yaxından iştirak edən, həmin soyqırımının bilavasitə iştirakçısı olmuş Xaçaturyan Vaqif Çerkezoviçin sərhədçilər tərəfindən saxlanılması xüsusi qeyd edilməlidir.

2021-ci ildə bəzi kütləvi informasiya vasitələrində və müxtəlif sosial media səhifələrində erməni futbolçularının Azərbaycan Dövlət Bayrağı barədə təhqiredici hərəkətlər etmələrini əks etdirən videogörüntülər yayılmışdı. Faktla bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 283.2.3 (Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması mütəşəkkil dəstə tərəfindən törədildikdə) və 324-cü (Azərbaycan Dövlət bayrağı və ya gerbi barədə təhqiredici hərəkətlər) maddələri ilə cinayət işi başlanılmışdır [Məmmədov, 2023].

Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən keçirilmiş axtarış tədbirləri nəticəsində avqustun 28-də Ermənistan vətəndaşları-2001-ci il təvəllüdlü Alen Sarqsyan, 2003-cü il təvəllüdlü Vahe Hovsepyan və Levon Qriqoryan Azərbaycan-Ermənistan dövlət sərhədinin Laçın sərhəd-keçid məntəqəsində saxlanılmışdır.

2023-cü il sentyabrın 27-də “Laçın” dövlət sərhədindən buraxılış məntəqəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən ölkə ərazisinə qeyri-qanuni gələrək qondarma “Dağlıq Qarabağ Respublikasının Dövlət naziri” vəzifəsində çalışmış Ruben Karleni Vardanyan, sentyabrın 29-da isə 2015-2018-ci illərdə qondarma “Dağlıq Qarabağ Respublikasının Müdafiə naziri” vəzifəsində çalışmış Lyova Henrixi Mnatsakanyan Azərbaycan Respublikasından Ermənistan istiqamətində hərəkət edərkən saxlanıldı.

Bütün bunlar bir daha göstərir ki, Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsinin yaradılmasında məqsəd heç də qarşı tərəfin iddia etdiyi kimi, hərəkəti məhdudlaşdırmaq deyil, əksinə, Laçın-Xankəndi yolunda avtomobillərin və insanların təhlükəsiz hərəkətini təmin etməklə yanaşı, ölkə ərazisinə qeyri-qanuni daşımaların qarşısını almaq, milli maraqları və təhlükəsizliyi təmin etməkdir.

## NƏTİCƏ

“Laçın” dövlət sərhədindən buraxılış məntəqəsinin açılması və üçrəngli dövlət bayrağımızın qaldırılması Azərbaycan xalqına Zəfər yaşadan Müzəffər Ali Baş Komandan İlham Əliyevin suveren ərazilərimizdə özbaşınalıqlar etmək istəyən erməni separatçılarının başına endirdiyi növbəti “Dəmir yumruq” zərbəsi oldu [Azərtac, 2023]. Məhz bu uğurun məntiqi davamı kimi 2023-cü il sentyabrın 19-da Silahlı Qüvvələrimiz tərəfindən antiterror tədbirləri” uğurla həyata keçirildi və cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Bununla da müstəqillik tarixində ilk dəfə olaraq Azərbaycanın özünün ərazi bütövlüyünə və suverenliyinə tam nail oldu.

Göründüyü kimi, nəyi necə, nə vaxt etmək lazım olduğunu bilən Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsi nəticəsində ədaləti təmin etdiyi kimi, bundan sonrakı mərhələdə də ölkəsinin milli maraqlarını beynəlxalq hüquq çərçivəsində ardıcıl şəkildə təmin etməyi bacardı.

## ƏDƏBİYYAT

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. (2021). *Vətən müharibəsi tarixi: şəxsiyyət faktoru.* Şərq-Qərb.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi. (2021). *44 günlük Qarabağ müharibəsi: mülahizə və nəticələr*. Air Center.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi. (2022). *44 günlük vətən müharibəsində qazanılan qələbənin 2-ci ildönümünə həsr olunmuş respublika elmi-praktik konfransın materialları*. Müdafiə Nazirliyi portalı.

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti. (2023). *Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzinin Məlumatı.* https://dsx.gov.az/news/1563.

Məmmədov C. (2023). "Laçın" sərhəd-buraxılış məntəqəsi sülh və təhlükəsizliyə xidmət edir. https://respublika-news.az/news/lacin-serhed-nezaret-buraxilis-menteqesi-sulhe-ve-tehlukesizliye-xidmet-edir

Azərtac. (2023). "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi Azərbaycanın suverenliyini və təhlükəsizliyini təmin edir. https://azertag.az/xeber/lachin_dovlet_2743171

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. (2022). *Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in sualını cavablandırır.* https://www.mfa.gov.az/az/news/no11722

**Daxilolma tarixi: İlkin variant 26.05.2026**
**Son variant 05.06.2026**